# SOVET RUSİYASI-ALMANİYA «ƏLAVƏ MÜQAVİLƏSİ»nin (27 AVQUST 1918-ci il) MEYDANA ÇIXMASI SƏBƏBLƏRİ HAQQINDA

**R.Q.HƏTƏMOV**
*Bakı Dövlət Universiteti*

1918-ci ilin yazında Almaniya Bakı neftini ələ keçirmək üçün digər vasitələr ilə yanaşı, həmçinin Rusiya ərazisinə iqtisadi nüfuz etmədən də istifadə etməyə çalışırdı. Brest-Litovsk müqaviləsindən sonra istər alman komandanlığı və siyasi rəhbərliyi, istərsə də iri maliyyə-sənaye inhisarları nəyin bahasına olursa-olsun Rusiyanın iqtisadi cəhətdən fəth edilməsi barəsində vahid siyasi xəttin aparılmasını nəzərdən keçirirdilər. Lakin bu istiqamətdə atılan hər bir addım Almaniyanın hərbi-strateji maraqları ilə, yəni Şərq cəbhəsinin yenidən bərpa edilməməsi istəyi ilə uzlaşdırılmalı idi. Başqa sözlə desək, Almaniya bolşevik hakimiyyəti ilə ümumi razılıq əsasında iqtisadi layihələrini reallaşdırmaq məcburiyyətində idi. Digər tərəfdən Sovet Rusiyası da vətəndaş müharibəsi və xarici müdafiənin tüğyan etdiyi bir dövrdə dağılmış iqtisadiyyatının tez bir zamanda bərpası üçün daxili imkanlar ilə yanaşı, xarici dövlətlərin iqtisadi potensialından yararlanmağa çalışırdı. Sovet Rusiyası, həmçinin Brest-Litovsk sülh müqaviləsinin şərtlərinə əsasən Mərkəz dövlətlər qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmək üçün böyük məbləğdə borc almaq məcburiyyəti qarşısında qalmışdı. Maliyyə çətinliyi ilə üzləşən Sovet Rusiyası problemin həlli məqsədi ilə təbii ehtiyatlarının istismarı sahəsində müəyyən edilmiş qaydada konsessiyalar verilməsi barəsində müzakirələr aparırdı. Konsessiyalar dəmir yollarının inşası, kənd təsərrüfatı məhsullarının emalı, mineral gübrələrin istehsalı, qızıl mədənlərinin istismarı ilə yanaşı, həmçinin neft hasilatına da aid edilirdi. 1918-ci il mayın 15-də Moskvada Rusiya ilə Almaniya arasında iqtisadi münasibətlərin bərpa edilməsi şərtlərinə həsr olunmuş rus-alman komissiyasının iclasında çıxış edən ticarət və sənaye xalq komissarının müavini M.Q.Bronski bildirdi ki, Sovet Rusiyası Almaniyaya bu konsessiyaları təqdim etməklə, həmçinin bir sıra şərtlər də irəli sürür ki, bunlardan biri də Almaniyanın əvvəllər Rusiya imperiyası tərkibində olmuş Ukrayna, Polşa, Pribaltika və Qafqaz ilə Rusiya arasında qarşılıqlı münasibətlərin qurulmasına qarışmaması idi (7, s.524-525). Almaniya Sovet Rusiyasının həyata keçirdiyi iqtisadi tədbirləri, o cümlədən xarici ticarət və bankların milliləşdirilməsini tanımalı idi. Sovet Rusiyası Krivoy Roq və Qafqazdan ən azı hasil edilən filizin yarısını özü üçün tələb edirdi.

Sovet Rusiyası rəhbərliyinin konsessiya barəsində əsas niyyəti ona qarşı düşmən mövqedə duran və hər an sovet hakimiyyətini boğmağa çalışan Qərb dövlətlərində hərbi dairələrin aqressiv səylərini əngəlləmək

üçün onlara qarşı inhisar birliklərinin maraqlarını qoymaq idi. Sovet Rusiyası özünün zəngin xammal ehtiyatlarını sərfəli şərtlər ilə xarici kapitala təqdim etməklə, özünün mövcudluğunu qoruyub saxlamağa çalışırdı. Öz növbəsində Almaniyanın iri bank-sənaye inhisarçı kapitalının nümayəndələri hökumətə ünvanladıqları müraciətlərdə Sovet Rusiyasına münasibətdə sabit iqtisadi siyasətin yürüdülməsini, yəni Sovet Rusiyası ilə iqtisadi münasibətlərin hərtərəfli inkişaf etdirilməsini təkidlə bildirirdilər. Prussiyanın dövlət naziri Qelferix 1918-ci il martın 14-də Prussiyanın hərbi nazirinə ünvanladığı məktubunda bildirirdi ki, Şərq ilə, yəni Sovet Rusiyası ilə normal ticarət münasibətlərinin bərpa olunması Almaniyanın Qərb cəbhəsində müqavimət gücünü artırardı (7, s.498). General Lüdendorf isə 1918-ci il mayın 3-də sıx iqtisadi əlaqələrin qurulması nəticəsində müharibədən sonrakı ilk dövrlərdə Almaniyanın iqtisadi cəhətdən Qərb ölkələrinin aparacağı düşmənçilik xarakterli iqtisadi mübarizəsinə inadlı müqavimət göstərəcəyini qeyd edirdi (7, s.518). Lakin hərbi komandanlıq Rusiyada bolşevizmə son qoyaraq yeni hakimiyyətin təşkil edilməsində təkid edirdi. Lüdendorf yazırdı ki, bolşevizm Almaniya üçün çox təhlükəli düşməndir, onun qarşısının alınması üçün çoxlu hərbi qüvvə sərf etmək lazım gələcəkdir (6, s.2,122). Almaniyanın Xarici İşlər Nazirliyində Şərq siyasəti ilə məşğul olan departamentə doktor Krige başçılıq edirdi. Onun Rusiya barəsində tutduğu mövqe alman-sovet münasibətlərinin sabit inkişafını nəzərdə tuturdu. Bu isə bolşevizm tüğyanının daha da geniş vüsət almasına şərait yaratmaqla, dolayısı ilə Almaniyanı bu proseslərə daha çox fəal müşahidəçi rolunda cəlb edirdi. Almaniya bir növ Sovet Rusiyasının mühafizəçisi kimi çıxış edir və Şərq cəbhəsində hərbi əməliyyatların dayandırılması müqabilində bolşeviklərin Rusiya daxilində həyata keçirdikləri tədbirləri rəsmən tanımış olurdu. Sovet Rusiyası isə bu sülhə arxalanaraq zorakı tədbirlərini yeni ərazilərə yayırdılar. Bolşevizm ideologiyası artıq Şərqdəki alman ordularına da sirayət etmişdi. Bu isə müharibənin sonlarında həlledici döyüşlər ərəfəsində çox ciddi problemə çevrilmişdi. Almaniya Avropa ictimaiyyətində bolşevizm vəhşiliklərini özündə əks etdirən Sovet Rusiyası ilə münasibətlər qurduğuna görə qınaq obyektinə çevrilmişdi. Hərbi komandanlıq Sovet hakimiyyətini devirmək üçün Petroqrad üzərinə bir neçə preventiv zərbə vurmağı və ya ataman Krasnovun Moskva üzərinə hücumu barəsində müzakirə edirdi. Məsələn, Lüdendorf belə hesab edirdi ki, «bizə daxilən düşmən olan Sovet hökumətini kənarlaşdıra bilər və Rusiyada bizə qarşı işləməyən və bizim ilə axıra qədər getməyə hazır olan digər hakimiyyəti bərqərar edə bilərdik» (6, s.2, 218). Müharibənin ümumi vəziyyəti baxımından hətta yeni rus hakimiyyəti ilə möhkəm əlaqələr qurmaq məqsədi ilə Brest-Litovsk müqaviləsinə yenidən baxmaq zərurəti də nəzərdə tutulurdu.

Alman-Şərq cəbhəsi ordularının qərargah rəisi general Qofman xatirələrində yazırdı ki, «arxada bizim ərzaq və xammal əldə edə biləcəyimiz dinc Rusiyanın olması üçün orada qəti tədbirlər görmək lazım idi» (4, s.140). O da Lüdendorf ilə razılaşaraq bildirirdi ki, yeni rus hakimiyyətini bərqərar etmək üçün az hərbi qüvvə ilə Moskva üzərinə hücum etmək olardı. Yeni rus hakimiyyətini Almaniya ilə ittifaqa cəlb etməyin vasitələrindən biri kimi isə Brest-Litovsk müqaviləsinin şərtlərinə yenidən baxılmasını, hətta Polşanın Rusiyaya güzəştə gedilməsi nəzərdə tutulmuşdu. Almaniyanın «Moskvadakı hərbi attaşesi mayor Şu-

bert ilk olaraq bolşeviklərə qarşı qəti hərəkətə keçilməsi təklifi ilə çıxış etmişdir» (4, s.141). Qofmanın Moskva üzərinə hücum planı 1918-ci ilin əvvəllərində meydana çıxmışdı. Alman komandanlığını bu plan barəsində düşünməyə vadar edən əsas amil Antanta qüvvələrinin Rusiyada fəallaşması idi. Qofman qeyd edirdi ki, Şərq cəbhəsinin yenidən bərpa olunmasına yol verməmək məqsədi ilə Rusiyada yeni hakimiyyətin bərqərar edilməsinə diqqət yetirilsəydi, onda Lüdendorfun Qərb cəbhəsində hücuma başlamasına qədər daha böyük əhəmiyyətli nəticələr əldə olunardı (4, s.141). Alman Şərq cəbhəsinin komandanlığı hətta yeni rus hökumətinin başçısı vəzifəsinə belə namizədi müəyyənləşdirmişdi. Bu Romanovlar sülaləsindən olan böyük knyaz Pavel idi. Onunla alman komandanlığı arasında polkovnik Durnov vasitəsilə əlaqə saxlanılırdı.

Belə bir şəraitdə Sovet Rusiyası hər vasitə ilə alman hərbi komandanlığının bu istiqamətdə atmaq niyyətində olacağı addımları neytrallaşdırmağa çalışırdı. Almaniyanın o dövrdə tanınmış siyasi xadimi M.Ertsberger yazırdı ki, «mənimlə görüşündə Rusiyanın Berlindəki elçisi İoffe bildirirdi ki, Almaniyanın Rusiyanın daxili işlərinə qarışmayacağı və rus torpaqlarının ayrılmasına cəhd etməyəcəyini təmin etmək məqsədi ilə Sovet Rusiyası istənilən sənədi imzalayacaqdır» (2, s.216). 1918-ci il iyunun 2-də Lenin İoffeyə yazırdı: «Əgər alman tacirləri iqtisadi fayda götürsələr, anlasalar ki, müharibə ilə bizdən heç bir şey ala bilməyəcəklər, hər şeyi yandırarıq, onda Sizin siyasətiniz bundan sonra da uğur qazanacaq. Almanlara xammal verə billərik» (2, s.1, 81). Sovet Rusiyasının Xarici İşlər xalq komissarı Q.V.Çiçerin sonralar yazırdı ki, «bu ilk çətin dövrdə bizim Berlində diplomatik fəaliyyətimizin əsas vasitəsi alman işgüzar dairələrini Sovet Respublikası ilə iqtisadi əməkdaşlıqda maraqlandırmaq idi» (2, s.1,81).

1918-ci ilin mayın əvvəllərində Sovet Rusiyası Almaniyaya siyasi, iqtisadi və maliyyə məsələləri barəsində danışıqlara başlamağı təklif etdi. Brest-Litovsk müqaviləsində işğal altında olan rus əraziləri ilə digər Rusiya ərazisi arasında dəqiq demarkasiya xəttinin olmaması, alman komandanlığı tərəfindən Rusiya ərazisində keçirilən «öz müqəddəratını müəyyən etmə» tədbirləri əslində Brest-Litovsk sülhündən sonra da alman hərbi qüvvələrinin yeni-yeni əraziləri işğal etmələri ilə müşayiət olunurdu. Bu zaman Almaniya ilə Sovet Rusiyası arasında Brest-Litovsk müqaviləsindən sonra yaranmış vəziyyəti müzakirə etmək və müvafiq sazişin imzalanması üçün danışıqlar aparılırdı. Sülh danışıqlarının Brest-Litovsk formatından fərqli olaraq separat qaydada aparılması Almaniyanın Sovet Rusiyası hesabına daha çox ərazi ələ keçirməsi və mənfəət əldə etməsi niyyətindən xəbər verirdi. Müxtəlif bəhanələr ilə Rusiya ərazisində hərbi əməliyyatlar aparan Almaniya faktiki olaraq nəinki Brest-Litovsk müqaviləsi altındakı imzasını, həm də müttəfiqlərininin iradəsini əks etdirən bu müqaviləni əhəmiyyətsiz bir kağız parçasına çevirirdi.

Bundan başqa Sovet Rusiyası sülh müqaviləsinə əsasən üzərinə götürdüyü maliyyə öhdəliklərini yerinə yetirmək məqsədi ilə Almaniya ilə danışıqlara tez bir zamanda başlamaq niyyətində idi. Almaniya da öz növbəsində bu danışıqlara başlamaqda maraqlı idi. Bu ilk növbədə Almaniyaya Sovet Rusiyasına maliyyə tələblərini irəli sürməsinə imkan verirdi. Bu arada 1918-ci ilin iyununda Nuayon ətrafında almanların VII ordusunun hücum əməliyyatı nəticəsində hərbi komandanlığın sə-

rəncamında olan bütün duru yanacaq ehtiyatı tüкənmiş oldu. Ordu neft qıtlığı ilə üzləşdi. Uкraynadan ərzağın daşınmasının təmin edilməsi üçün gəmir yollarının tam gücü ilə istifadə edilməsi yanacaq problemi səbəbindən mümкün olmurdu (6, s. 2, 219-220). Lüdendorf yazırdı кi, «indi bizə elə gəlirdi кi, neft qıtlığının Cənubi Qafqazdan və xüsusi ilə Baкıdan neft daşınması ilə aradan qaldırılması mümкündür». Birinci dünya müharibəsi dövründə alman ordularının ən qara günü sayılan 8 avqust 1918-ci il tarixindən sonra Almaniya müharibədən çıxmağın diplomatiк yoluna daha çox üstünlüк verməyə başladı. Kayzer II Vilhelm Lüdendorfa bildirdi кi, «iyulda və 8 avqustdaкı uğursuzluqlardan sonra belə bir qənaətə gəlmişdir кi, Almaniya artıq müharibəni uda bilməz» (6, s. 2, 242). Belə bir vəziyyətdə Almaniya müharibədən şərəfli sülh ilə çıxmaq üçün bütün qüvvəsini səfərbər etməyə hazırlaşırdı. «İmperator düşmən ilə saziş bağlanması üçün əlverişli vaxtın gözlənilməsini, кansler isə belə bir anın Qərbdə ilк hərbi uğurun olacağını hesab edirdilər (8, s. 284). Əlbəttə кi, bütün bunların baş tutması üçün Almaniyanın Şərq cəbhəsinin yenidən bərpa olunması təhlüкəsi qarşısında narahatlığı izah olunan haldır. Almaniyanın siyasi və hərbi dairələri yaranmış vəziyyətdə Sovet Rusiyası ilə münasibətləri sülh şəraitində saxlamaq niyyətində idilər. Bu məqsədlə hələ Sovet Rusiyasının 1918-ci il mayın 22-də Almaniyaya etdiyi təкlif, yəni Brest sülhündən irəli gələn və aydınlaşdırılmamış məsələlər barəsində danışıqlara başlanması (7, s. 540) təкlifi Almaniya üçün bu istiqamətdə atılacaq ciddi addım кimi qiymətləndirilirdi. Avqustun ortalarında Almaniya ilə Sovet Rusiyası arasında imzalanacaq sazişlərin layihələri əsasən tərtib olunmuşdu.

1918-ci il avqustun 21-də Berlində alman höкuməti və Reyxstaqda təmsil olunmuş partiyaların nümayəndələrinin birgə müşavirəsi кeçirildi. Müşavirə Sovet Rusiyası ilə imzalanması nəzərdə tutulan Brest-Litovsк müqaviləsinə əlavə sazişlərin müzaкirəsinə həsr olunmuşdu.

Almaniya ilə Sovet Rusiyası arasında Berlində 1918-ci il avqustun 27-də bağlanmış müqavilələr 1918-ci il martın 3-də Rusiyanın Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türкiyə ilə imzalanmış tamamlayıcı (Zusatzvertrage) müqavilələrdən fərqli olaraq əlavə (Ergdnzungsvertrdge) müqavilələr adlandırılmışdır. Bu müqavilələrin hazırlanması zərurəti Brest-Litovsк müqaviləsinin yaratmış olduğu qeyri-müəyyənliк ilə bağlı idi. Belə кi, Brest sülhü alman qoşunlarının işğal olunmuş rus ərazilərində sovet qoşunları arasında demarкasiya xəttini nəinкi müəyyən etmirdi, həmçinin Finlandiya və Uкraynanın sərhədlərini dəqiq əкs etdirmirdi. Xalqların öz müqəddəratlarını təyin etməsi prinsipinin saxtalaşdırılması nəticəsində yeni-yeni rus vilayətləri alman qoşunları tərəfindən zəbt olunurdu. Sovet Rusiyası belə bir vəziyyətin aydınlaşdırılmasında, yəni istər demarкasiya xəttinin müəyyənləşdirilməsi, istərsə də Almaniyanın Rusiya ərazisində yarımmüstəqil dövlət qurumlarının yaradılması siyasətinə son qoyulmasında maraqlı idi. Sovet-alman danışıqlarında maliyyə, hüquqi tənzimləmə məsələləri də əsas mövzular idilər. Danışıqlara başlanılması təşəbbüsünü Sovet Rusiyası 1918-ci il aprelin 26-da Almaniya höкumətinə təкlif etmiş və sonra Berlində alman-sovet siyasi кomissiyası öz işinə başlamışdı. Danışıqlar əsasən almanların təzyiqi altında, laкin bolşeviкlərin bir sıra məsələlərdə maraqları nəzərə alınmaqla aparılmışdı. Mirbaxın qətlə yetirilməsi istər Almaniya, istərsə də Sovet Rusiyasında Antanta qüvvələrinin iкi dövlət arasında yenidən

hərbi əməliyyatların başlanmasına cəhdi kimi qiymətləndirilmişdi. Bu hadisədən sonra da danışıqların sabit olaraq aparılması davam etmişdir. 1918-ci il avqustun 27-də Sovet Rusiyası ilə Almaniya arasında si-yasi müqavilə, maliyyə sazişi və şəxsi hüquqi saziş imzalanmışdır. Siyasi müqavilə 8 fəsil, 17 maddədən ibarət idi. Müqaviləni Almaniya tərəfindən xarici işlər naziri fon Qintse və Xarici İşlər Nazirliyində direktor İoqannes Krige, Sovet Rusiyası tərəfindən isə Berlindəki Sovet səfiri Adolf İoffe imzalamışdılar (7, s. 606).

Müqavilənin IV maddəsinə əsasən Almaniya Rus dövləti ilə onun ayrı-ayrı vilayətləri arasındakı münasibətlərə heç bir formada qarışmamalı, və deməli, Almaniya bu vilayətlərdə müstəqil dövlət orqanizmlərinin təşkil olunmasına təhrik etməməli, müdafiə etməməlidir.

V maddəyə əsasən Rusiya özünün bitərəfliyinə riayət etmək məqsədi ilə sərəncamında olan bütün vasitələr ilə Antanta dövlətlərinin hərbi qüvvələrini Şimali Rusiya ərazisindən qovub çıxarmalı idi. Biçeraxov avqustun əvvəllərində Dərbənddən Bakıya teleqrafla bildirirdi ki, bolşeviklər Bakıda yenidən Sovet hakimiyyətini bərpa etmək üçün Həştərxandan Petrovska çoxlu sayda qoşun və silah-sursat, o cümlədən latış hərbi dəstələri göndərirlər. Avqustun 28-də Krige bundestaqda alman dövlətlərinin nümayəndələri qarşısında bu müqavilələr ilə bağlı verdiyi şərhində bildirmişdi ki, V maddənin məğzi gizli notalarda daha da dəqiqləşdirilmişdir. Belə ki, bunlara əsasən Almaniya bu ərazilərdə Antantaya qarşı hərbi əməliyyatlar aparmaq hüququna malikdir. «Və ingilislərin möhkəmləndiyi Bakıya münasibətdə də analoji razılıq əldə edilmişdir» (7, s. 639). Belə bir razılaşmanın mümkünlüyünü sübut edən dəlil kimi Sovet Rusiyasının Qafqazda türk hərbi qüvvələrinin fəaliyyətinə qarşı kəskin etirazların bildirildiyi halda Gürcüstana alman qoşunlarının gətirilməsinə heç bir münasibət bildirilməməsini qeyd edə bilərik.

Müqavilənin VI fəsli (13 və 14-cü maddələr) Qafqaz məsələsinə həsr olunmuşdu. XIII maddəyə əsasən «Rusiya Almaniyanın Gürcüstanı müstəqil dövlət orqanizmi kimi tanımasına» öz razılığını bildirirdi (7, s. 612). XIV maddədə Almaniya Gürcüstan və Qars, Batum, Ərdəhan dairələrinin hüdudlarından kənarda Qafqazda heç bir üçüncü dövlətin mümkün ola biləcək hərbi əməliyyatlarını müdafiə etməyəcəyi öhdəliyini götürürdü. Burada həmçinin Almaniya Kür çayının mənsəbindən Petropavlovsk kəndinə qədər, Ağrıoba kəndinə qədər Şamaxı qəzasının sərhədi ilə Bakı, Şamaxı və Quba qəzalarının sərhədlərinin birləşdiyi yerə qədər düz xətt ilə, sonra isə Bakı qəzasının şimal sərhədi ilə dənizə qədər uzanan xəttin üçüncü dövlətin hərbi qüvvələrinin keçməməsi üçün öz təsirini göstərəcəyi barəsində öhdəlik götürürdü. Bu maddəyə əsasən Rusiya öz qüvvəsi daxilində Bakıda neft və neft məhsullarının çıxarılmasına nail olmalı və bunun 1/4-ni Almaniyaya təqdim etməli idi. Aylıq neftin göndərilməsi normasının müəyyənləşdirilməsi sonraya saxlanılmışdı. Lakin bu maddədə göstərilmişdir ki, Bakıda hasil ediləcək neft müəyyən ediləcək aylıq normadan az olacağı üçün başqa yerlərdən əldə ediləcək miqdar ilə tamamlanacaqdır (7, s. 612). XII maddəyə əsasən Rusiyanın Bakı neftindən verəcəyi hər tonun müqabilində Almaniya Donetsk hövzəsindən bundan 3 dəfə çox, daş kömür, hər ton benzinin müqabilində isə 4 dəfə çox daş kömür verməli idli. Donetsk hövzəsindən çıxarılan daş kömür bu tələbatı ödəmədiyi üçün o, alman daş kömürü ilə tamamlanmalı idi (7, s. 611). 1918-ci il sentyabrın 2-də Rusiya Mərkəzi

İcraiyyə Komitəsinin iclasında çıxış edən Xarici İşlər Xalq Komissarı Q.V.Çiçerin bu müqaviləni şərh edərkən bildirmişdi ki, Qafqazda üçüncü dövlət dedikdə, Türkiyə nəzərdə tutulmuşdur (7,644). Krigenin şərhində isə göstərilirdi ki, notalar mübadiləsi vasitəsilə belə razılıq əldə edilmişdir ki, Almaniya hələlik Ukrayna və Gürcüstanda öz qoşunlarını saxlaya bilər. Lakin bunun müqabilində Almaniya Ukraynadan Rusiyanı dəmir, Gürcüstandan isə marqans əldə etməsini təmin etmək barəsində vəd vermişdi (7, s. 640).

Müqavilənin XVII maddəsinə əsasən bu əlavə müqavilə 1918-ci il sentyabrın 6-da Berlində radifikasiya sənədlərinin mübadiləsindən sonra qüvvəyə minməli idi.

Maliyyə sazişinə əsasən Sovet Rusiyası Almaniyaya 6 milyard marka məbləğində təzminat ödəməli idi (7, s. 615). Sazişdə alman təbəələrindən müsadirə olunaraq milliləşdirilmiş müəssisələrin geri qaytarılmasının mümkünlüyü də öz əksini tapmışdır (7, s. 620).

«Əlavə müqavilə»nin imzalanması Brest sülhündən sonra Almaniya ilə Sovet Rusiyası arasında yaranmış gərginliyi bir qədər azaltsa da, siyasi nəticələri baxımından Almaniya üçün qeyri-məqbul sənəd idi. Belə ki, Almaniya bununla nəinki Sovet Rusiyasının həyata keçirdiyi bütün tədbirləri tanıyırdı, hətta bolşeviklərə qarşı mübarizə aparan qüvvələr ilə bilavasitə silahlı mübarizə aparmağa belə razılaşmışdı. Almaniya bolşevikləri bir sıra rus vilayətlərinin qoparılması ilə hesablaşmağa məcbur etsə də, Rusiya ictimaiyyətində özünə qarşı nifrətin artması ilə qarşılaşdı. Almaniyanın Qafqaz ilə bağlı üzərinə götürdüyü öhdəliklər isə Sovet diplomatiyasının böyük uğuru hesab edilə bilərdi. Müharibənin sonuna yaxın Almaniya özünün döyüş meydanlarında sınanılmış müttəfiqi olan Türkiyəyə qarşı düşməncəsinə davranmağı üstün tutdu. Başqa sözlə, Almaniya Şərq cəbhəsində hərbi əməliyyatların başlanması təhlükəsi barəsində bolşeviklərin yaydıqları şayiələr qarşısında Sovet Rusiyası ilə hesablaşmalı oldu və Türkiyənin həyati maraqlarını buna qurban verdi. Brest-Litovsk müqaviləsinə ciddi riayət edilməsini israrla Türkiyənin diqqətinə çatdıran Almaniya bu müqavilənin şərtinə zidd olaraq yaranmış Gürcüstanın müstəqilliyini tanımaqla riyakar siyasət aparırdı. Müttəfiqlərindən gizli şəkildə müqavilə imzalamaqla Almaniya özünün qeyri-səmimiliyini nümayiş etdirmiş oldu. Almaniya bu müqaviləni imzalamaqla Azərbaycanın ərazi bütövlüyünə böyük zərbə vurmuş oldu. Bu müqavilələrə münasibətdə alman siyasi dairələrində yekdillik yox idi. M.Ertsberger 1918-ci il avqustun 21-də bu müqaviləni «böyük siyasi səhv» adlandırdı (8, s. 217). B.Bülov isə belə hesab edirdi ki, bolşeviklər daha çox sülh istədikləri üçün onlardan daha çox ərazi qoparmaq olardı. Bu baxımdan o, Brest-Litovsk sülhünü «ağır səhv» hesab edirdi. Əlavə sazişlər Bülov tərəfindən məhz bu istəyin reallaşması baxımından müsbət qiymətləndirilirdi. Moskvadakı alman səfiri Qelferix ümumən bu müqavilələri yüksək qiymətləndirsə də, avqustun 19-da Berlinə – Xarici İşlər Nazirliyinə göndərdiyi hesabatında yazırdı ki, müqavilələrin bir neçə maddəsində əks olunmuş müddəalar «bizim bolşeviklər ilə həmrəyliyimiz təsəvvürünü daha da gücləndirir, qeyri-bolşevik elementləri ilə görüşləri dağıdır. Yeni Rusiyanın qurulması zamanı istinad edə biləcəyimiz elementləri Antanta düşərgəsinə atır» (7, s. 597).

Müqavilə gizli olsa da, tezliklə onun ayrı-ayrı maddələri barəsində xəbərlər sızmağa başlamışdı. Bu isə Türkiyə və Azərbaycanda ciddi na-

rahatlıq doğururdu. Xəbərlərin tədricən öz təsdiqini tapmaları Türkiyə və Azərbaycanın tanınmış siyasi və dövlət xadimləri tərəfindən kəskin etiraza səbəb oldu. Artıq sentyabrın əvvəllərində İstanbulda Almaniya ilə Sovet Rusiyası arasında avqustun 27-də imzalanmış gizli saziş barəsində məlumatlar yayılmaqda idi. M.Ə.Rəsulzadənin almanların xəyanəti adlandırdığı bu sazişə ən mühüm və layiqli cavabın məhz Bakının alınmasında görürdü (2, s. 43). Maraqlıdır ki, Gürcüstan mətbuatı bu saziş barəsində yayılmış xəbərləri təkzib edərək Almaniyanı ciddi səylə müdafiə edirdi. 1918-ci il sentyabrın 10-da «Qruziya» qəzeti Berlindən aldığı məlumatlara əsasən iddia edirdi ki, avqustun 31-də Liondan rus-alman sazişi barəsində verilmiş radio xəbər həqiqətə uyğun deyildir (1). Lakin saziş barəsində Avropa mətbuatı barəsində yayılan xəbərlər onun mövcudluğunu göstərirdi. 1918-ci il sentyabrın 12-də M.Ə.Rəsulzadə Azərbaycan hökuməti adından İstanbuldakı alman səfirliyinin işlər müdiri qraf Valdeburqa etiraz notasını təqdim etdi. Notanın mətninin təhlili göstərir ki, Azərbaycan Almaniyanın ona qarşı açıq xain hərəkəti ilə əlaqədar kəskin ifadələrdən istifadə etməkdən çəkinmişdir. Görünür bu cəhət Türkiyə rəsmiləri ilə məsləhətləşmələr zamanı razılaşdırılmışdı. Digər tərəfdən isə, Tələt paşanın Vyana və Berlində danışıqlar aparması da burada öz təsirini göstərmişdir. Bu nota Azərbaycan Respublikasının özünün ərazi bütövlüyünü təmin etmək istiqamətindəki fəaliyyətində mühüm yer tutur. İndiyə qədər erməni və gürcü hökumətlərinə ünvanlanan etiraz notalarından fərqli olaraq bu nota dünya müharibəsində iştirak edən iki koalisiyadan birinin – Dördlər ittifaqının faktiki olaraq başçısı olan və Türkiyənin müttəfiqi Almaniyaya ünvanlanmışdı. Notada diqqəti çəkən digər bir maraqlı cəhət də xalqların taleyini onların iştirakı olmadan müəyyənləşdirən imperialist dövlətlərinin siyasəti kimi Bakı məsələsində də Almaniya və Sovet Rusiyasının Azərbaycan xalqının iradəsinin əksinə olaraq imperialist sövdələşməsinə gəlmələrinin pislənilməsidir. Notada belə bir fikir xüsusilə vurğulanırdı ki, Azərbaycan xalqı Bakının geri alınmasını milli hərəkat hesab edir və bu məqsədindən heç bir halda əl çəkməyəcəkdir. Çünki bu müstəqil Azərbaycan dövlətinin mövcudluğu məsələsi idi. Başqa sözlə, Azərbaycan hökuməti nəinki Bakı barəsində alman-sovet razılaşmasına etiraz edir və onu qəubl etmədiyini qeyd edirdi, o həm də Bakının geri alınması istiqamətində hər cür maneələri dəf edəcəyini bəyan edirdi.

Azərbaycan Respublikasının qətiyyətlə öz maraqlarının müdafiəsinə qalxması, türk rəsmi nümayəndələrinin kəskin bəyanatları alman imperiya hökumətini geri çəkilmək məcburiyyəti qarşısında qoymuşdu. Sentyabrın əvvəllərində almanlar Bakı məsələsində səhv etdiklərini etiraf etməyə başlamışdılar (7). Mətbuatda antialman çıxışlarının yer almasına baxmayaraq nə Türkiyə, nə də Azərbaycan bu vəziyyətdə Almaniya ilə diplomatik münasibətləri kəsmək barəsində düşünürdülər. Əksinə, Azərbaycan hökuməti Almaniya ilə münasibətləri normallaşdırmaq və keyfiyyətcə yeni mərhələyə daxil olması üçün yeni cəhdlər göstərirdi.

**QEYDLƏR:**


1. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARSPİHDA) f.277, siy.2, iş 8, v.41.
2. ARMDA f.894, siy.10, iş 153, v.29.
3. ARMDA f.894, siy.10, iş 153, v.11.

4. Гофман М. Война упущенных возможностей. М.-Л.: 1925
5. История внешней политики СССР. 1917-1985. В 2-х томах. т.1, 1917-1945. М.: 1986.
6. Людендороф Э. Мои военные воспоминания, Т.II, М.: Издание торговый дом Милан Лиман & СО; Т.II - Мои воспоминания о войне 1914-1918 гг. Пер. с нем. М.-Л.: 1924.
7. Советско-германские отношения от переговоров в Брест-Литовске до подписания Рапалльского договора. ч.1, 1917-1918, М.: 1968.
8. Эрцбергер М. Германия и Антанта (вспоминания бывшего германского министра финансов). Москва-Петроград, Государственное издательство, 1923.

## О ПРИЧИНАХ ВОЗНИКНОВЕНИЯ СОВЕТСКО-ГЕРМАНСКОГО «ДОПОЛНИТЕЛЬНОГО ДОГОВОРА» (27 АВГУСТА 1918 ГОДА)

**Р.Г.ГАТАМОВ**

**РЕЗЮМЕ**

Весной 1918-года Германия стремилась прибрать в свои руки всю экономику советской России. Особенно германские промышленно-финансовые круги были очень заинтересованы в захвате сырьевых и топливных источников бывшей Российской империи, в том числе Бакинский нефтяной район. Не имея достаточных вооруженных сил для захвата Баку немецкое военное и политическое руководство предпочтение отдавало на дипломатические мероприятия с большевистской Россией. Двухсторонние сепаратные переговоры начались по инициативе Советского правительства и велись в течение трех месяцев втайне от других участников государств, подписавших Брест-Литовский мирный договор. Дополнительный договор вызвал бурную дискуссию в германских политических кругах.

## "ABOUT THE FORMATION OF THE CAUSES OF THE "ADDITON TREATY" (27 AUGUST, 1918) BETWEEN SOVETIC RUSSIA-GERMANY"

**R.Q.HATAMOV**

**SUMMARY**

In the spring of 1918 Germany aspired to tidy up all economy of the Soviet Russia in the hands.Especially , German industrial – financial circles were very much interested in capture of raw and fuel resources of former Russian empire, including Baku oil area. Not having, sufficient armed forces for capture of Baku the preference gave a German military and political management on diplomatic actions with Bolshevik Russia. Bilaterial separate negotiations have begun under the initative of the Soviet government and were conducted during three months secretly from other participants of the states signed the Brest- Lithuanian peace treaty. The additional contract has caused rough discussion in the German political spheres.